**Dərələrə dərman**

Dərələrə dərman, çən
Yetir özün bilərsən...
Kimə nə istəyirsən
Gətir, özün bilərsən!
Dünyanın başına tök
ətir, özün bilərsən –
Keçəlin başın tük
Bitir, özün bilərsən –
Amma ki, gəl, ulu yaz,
Gəl ki, gecikmək olmaz...

Buludu yelpikləyib
Şum üstünə cuna çək,
Xalça, palaz, ipliyi,
Yorğanı eyvana çək,
Qayadakı kəkliyin
Ayağına xına çək,
Evini yıx təkliyin,
Könülləri günə çək
Amma ki, gəl, ulu yaz,
Gəl ki, gəlməsən olmaz...

Yalın ağacdan çıxır
Payızın buynuzları,
Sarılıb duman öpür
Öpülməmiş qızları...
Əvvəl xəzəli süpür,
Sonra sındır buzları,
Yetimə yemlik gətir,
Xəcil et qansızları –
Amma ki, gəl, ulu yaz,
Gəl ki, gəlməsən olmaz...
Gəzirəm qapı-qapı
Sahibsiz pişik kimi,
Hanı anam – baharım-
Ev kimin, eşik kimin?!
Ələndir yağışların
Gözümün yaşı kimi.
Anam yatan torpağı
Yırğala beşik kimi –

Tez elə gəl, ulu yaz,
Gəl ki, gəlməsən olmaz!!!

**Dərələrə duman... : şeir // Azərbaycan xalq bayramı Novruz. – Bakı : Təhsil, 2011. – S.204-205.**